# Azərbaycan – Belçika ikitərəfli münasibətləri

**Qısa tarixi məlumat:** Belçika Azərbaycan Respublikasının müstəqilliyini **31 dekabr 1991-ci ildə** tanımış, **17 iyun 1992-ci ildə** iki ölkə arasında diplomatik münasibətlər qurulmuş, **1995-ci ildə** Azərbaycanın Belçikada səfirliyi açılmışdır. **2007-ci ildə Belçikanın Azərbaycandakı Səfirliyi fəaliyyətə başlamışdır.**

**Yüksək səviyyəli qarşılıqlı səfərlər:**

| **Səfərlər** | Bakıya | Brüsselə |
|---|---|---|
| Dövlət başçıları | ---------- | 1994, 3-5 may<br>Prezident Heydər Əliyevin işgüzar səfəri<br>1995,4-5 may<br>Prezident Heydər Əliyevin işgüzar səfəri<br>1996,22-23 aprel<br>Prezident Heydər Əliyevin işgüzar səfəri<br>2004, 17-19 may<br>Prezident İlham Əliyevin işgüzar səfəri<br>2006, 6-8 noyabr<br>Prezident İlham Əliyevin işgüzar səfəri<br>2009,27-29 aprel<br>Prezident İlham Əliyevin işgüzar səfəri<br>2011, 21-23 iyun<br>Prezident İlham Əliyevin işgüzar səfəri<br>2012, 15 fevral<br>Prezident İlham Əliyevin işgüzar səfəri |

| | | |
|---|---|---|
| Parlament sədrləri | 2005, 6-7 aprel<br>Herman De Kroo<br>Işgüzar səfər | ---------- |
| Baş nazirlər | 1998, 13-15 aprel<br>Jan Lük Dean<br>Rəsmi səfər | ---------- |
| Xarici İşlər Nazirləri | ------------ | 2011, 7 dekabr<br>Elmar Məmmədyarov<br>Işgüzar səfər<br>2012, 15 fevral Elmar Məmmədyarov<br>Işgüzar səfər |

**Parlamentlərarası əlaqələr:**

Hər ikiparlamentdə parlamentlərarası əlaqələr üzrə işçi qrupu yaradılmışdır. Qrupun rəhbəri Elxan Süleymanovdır. Belçika parlamentində isə Azərbaycanla dostluq qrupunun rəhbəri Filip Blanşardır.

**Siyasi sahədə əməkdaşlıq:**

**4 oktyabr 2011-ci il tarixində** Belçika Krallığının Xarici İşlər Nazirliyinin siyasi əlaqələr üzrə baş direktoru Geert Muyle Bakıya səfər etmiş və Azərbaycan Respublikası xarici işlər naziri Elmar Məmmədyarov, Xarici işlər nazirinin müavinləri Xələf Xələfov və Mahmud Məmməd-Quliyevlə görüşmüş, beynəlxalq və regional münasibətlər ətrafında fikir mübadiləsi aparılmışdır.

1. "Azərbaycan Respublikası Hökuməti və Belçika Krallığı Hökuməti arasında diplomatik və konsulluq əlaqələrinin qurulması haqqında Razılaşma". **20 fevral 1992-ci ildə imzalanmışdır.**

2. "Azərbaycan Respublikası Hökuməti və Belçika-Lüksemburq İqtisadi İttifaqının Birgə bəyanatı". **13 aprel 1998-ci ildə imzalanmışdır.**

3. "Azərbaycan Respublikası Prezidenti və Belçika Krallığının Baş naziri arasında Birgə Bəyanat". **13 aprel 1998-ci ildə imzalanmışdır.**

**<u>İqtisadi sahədə əməkdaşlıq:</u>**

| **Ticarət əlaqələri** | **2008-ci il** | **2009-cu il** | **2010-cu il** | **2011-ci il** |
|---|---|---|---|---|
| Xarici Ticarət dövriyyəsi | 60.86 | 74.1 | 45786.7 | 59729.1 |
| İdxal | 59.8 | 57.1 | 44500.0 | 56 840.2 |
| İxrac | 1.06 | 17 | 1286.7 | 2 880.9 |
| Ticarət saldosu | -58.74 | -40 | -43213.3 | -53959.3 |

1. "Azərbaycan Respublikası ilə Belçika Krallığı arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergitutmadan yayınmanın qarşısının alınması haqqında Konvensiya".

2. "Azərbaycan Respublikası Hökuməti və Belçika-Lüksemburq İqtisadi İttifaqı arasında sərmayələrin qarşılıqlı təşviqi və qorunması haqqında Saziş".

3. "Azərbaycan Respublikası Hökuməti və Belçika Krallığı Hökuməti arasında gömrük məsələləri üzrə qarşılıqlı inzibati yardımın göstərilməsi haqqında ikitərəfli Saziş".

4. "Azərbaycan Respublikası Hökuməti və Belçika Krallığı Hökuməti arasında hava əlaqələri haqqında Saziş". **13 aprel 1998-ci ildə imzalanmış, 4 dekabr 1998-ci ildə təsdiq edilmişdir.**